“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 aprel 2023-cü il №24 (2736) https://mod.gov.az Qiyməti 30 qəpik

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

- Siz Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək.

Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur. Bütövlükdə bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur.

İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar. Xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə gətirilmiş və orada yerləşdirilmişlər. Bu, bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, Ermənistan dövləti bu hərbi cinayətə görə hələ də məsuliyyətə cəlb edilməmişdir.

Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonu da işğal edilmişdir. Bu, ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi və bu, AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdir və bu, daha böyük faciələrə yol açdı. Ondan bir il keçməmiş - 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur.

Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır" deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir.

Xüsusilə bildirməliyəm ki, uzun illər aparılmış danışıqlar əsnasında hər zaman vasitəçilər Laçın rayonuna hansısa xüsusi bir yanaşma sərgiləyirdilər və Ermənistan bütövlükdə Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz sayırdı. Halbuki onlar digər rayonlardan da çıxmaq fikrində deyildilər. İndi - müharibədən iki il yarım keçəndən sonra bu, hər kəsə daha aydın oldu. Beynəlxalq vasitəçilər - ATƏT-in ovaxtkı Minsk qrupu danışıqların aparılması ilə faktiki olaraq bu işğalı möhkəmləndirməyə çalışırdılar. İndi hər şey aydın oldu - Fransanın Azərbaycana bu ədalətsiz və mənfi münasibəti təsadüfi deyil. Sadəcə olaraq, işğal dövründə bunu müəyyən dərəcədə pərdələmək istəyirdilər, sadəcə olaraq, bizi çaşdırmaq istəyirdilər. Amma baxın, müharibədən - İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində bizə qarşı hansı çirkin əməllər törədilir, hansı əsassız ittihamlar irəli sürülür. Yəni, bütün bunlar göz qabağındadır, o cümlədən Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi bir sıra qətnamə yenə də ermənipərəst, rüşvətxor və anti-Azərbaycan qruplaşmanın məhsuludur və burada aparıcı rolu Fransa deputatları oynayır. İşğal dövründə də biz bunu təbii ki, hiss edirdik, amma bu dərəcədə yox. Təsəvvür edə bilməzdik ki, ölkələr bu dərəcədə riyakar, yalançı ola bilərlər. Adamın üzünə baxıb bir söz deyə, arxada başqa iş görə bilərlər.

Yəni, bu iki il yarım müddət ərzində bütün dünya bir daha hər şeyi gördü. Eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik. Onları məğlub etmişik və bir daha bütün dünyaya göstərmişik ki, biz istədiyimizə nail oluruq və olacağıq.

Beləliklə, Laçın rayonunun tarixçəsi, əlbəttə ki, bir çox hallarda ibrət olmalıdır. Bundan sonra Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması bizim üçün əsas vəzifələrdən biridir. Laçın rayonunun Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri, demək olar ki, başa çatmaq üzrədir. Heç vaxt tarixdə olmayan yollar salınıb, Laçın və Kəlbəcər rayonlarında 100 kilometrlərlə ölçülən kəndlərarası yollar, eyni zamanda, hərbi mövqelərə gedən yollar salınıbdır. Beləliklə, bu gün biz Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olmuşuq və bu mövqelərdə özümüzü gücləndiririk, bu mövqelərdə qalacağıq. Əlbəttə ki, Laçın rayonunun təhlükəsizliyi ilə bağlı başqa addımlar da atılır, tədbirlər görülür və bu tədbirlər imkan verir ki, oraya qayıdacaq soydaşlarımız rahat, təhlükəsizlik şəraitində yaşasınlar.

İkinci Qarabağ müharibəsi başa çatanda rayon bizim nəzarətimizə keçsə də, Laçın şəhəri nəzarətimizdən kənarda idi. Bunun obyektiv səbəbləri var idi. Çünki Ermənistandan Qarabağa gedən yol Laçın şəhərinin ortasından keçirdi. 2020-ci il noyabrın 9-da Rusiya Prezidenti ilə gün ərzində apardığım bir çox saatlıq telefon danışıqları nəticəsində biz nail olduq ki, Laçın şəhərinin də Azərbaycana qaytarılması şərtləndirilsin. Bu məqsədlə alternativ yolun çəkilişi mənim təkidimlə yekun Bəyanata salınmışdır və müddət göstərilmişdir. Amma bu, bir qədər qeyri-müəyyən ifadələrlə göstərilmişdir ki, üç il ərzində bu məsələ ilə bağlı müzakirələr aparılacaq. Ancaq İkinci Qarabağ müharibəsi başa çatan kimi mən dərhal göstəriş verdim ki, yeni yolun marşrutu və bütün texniki parametrləri müəyyən edilsin. Biz bu işə tezliklə başlamışıq və bunu bir il yarım ərzində həll etmişik. Yəni, Laçın şəhərindən yan keçən yeni yol çəkildi və keçən il avqustun əvvəlində, daha doğrusu, avqustun 2-də yol istismara hazır idi. Biz Rusiya sülhməramlı qüvvələrinin komandanlığına xəbər göndərmişdik ki, artıq onlar öz postlarını ovaxtkı marşrutdan çıxarıb yeni yola keçirsinlər və avqustun 5-nə qədər biz Laçın şəhərinə, Zabux və Sus kəndlərinə girməliyik. O vaxt bizim nümayəndələrimizlə təmasda olan Qarabağ ermənilərinin nümayəndələri bizdən xahiş etmişdilər ki, vaxt verin, biz avqustun 25-nə qədər özümüz bu məsələləri həll edərik, orada qanunsuz məskunlaşmış erməniləri Laçın şəhərindən, Zabux və Sus kəndlərindən çıxaracağıq və beləliklə, məsələ rahat şəkildə öz həllini tapa bilər.

(Ardı 2-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq

(Əvvəli 1-ci səhifədə)

Mən buna etiraz etmədim, yəni 20 gün o qədər də böyük fərq etmir. Beləliklə, Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşmış bütün ermənilər aparılan işlər nəticəsində avqustun 25-də oradan çıxarılmışdır. Avqustun 26-da biz Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Ondan sonra mən Laçın şəhərinə səfər etdim, Azərbaycan Bayrağını şəhərin mərkəzində qaldırdım və bəyan etdim ki, biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq.

Ondan dərhal sonra göstəriş verildi ki, biz vaxt itirmədən Laçın şəhərinin yenidən qurulması prosesinə start verək. Artıq iki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir. O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək.

Kəlbəcər-Laçın yolunun yenidən qurulması prosesinə start verildi. Mən özüm Kəlbəcərdən Laçına maşınla getmişəm, məsafə o qədər uzun olmasa da, bu yol həddindən artıq çətin və təhlükəlidir, indiki yoldan istifadə etmək, demək olar ki, qeyri-mümkündür. Sovet vaxtında o bölgələrdə yaşamış insanlar da yaxşı xatırlayırlar ki, o yol çox çətin idi, bir çox hallarda bu, serpantin yoldur və çox təhlükəli idi. Ona görə biz bu yolu yenidən qururuq, bir çox tunellər inşa ediləcək. Ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarında bizim ən çox tunellərimiz məhz o bölgədədir və Murov dağının altından keçən tunelin uzunluğu təxminən 12 kilometr olacaq. Beləliklə, biz Göygöl rayonundan da Şərqi Zəngəzura yol açırıq. Eyni zamanda, Qubadlı-Laçın yolu da sürətlə inşa edilir.

Yəni, müharibə başa çatan kimi Laçın rayonunun yenidən qurulması ilə bağlı işlərə start verilmişdir. Amma Laçın şəhərinin yenidən qurulması keçən ilin avqustun 26-dan bu yana icra edilir. Sizə və Azərbaycan ictimaiyyətinə bildirmək istəyirəm ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Mənim göstərişimlə bütün bu işləri biz bu ilin sonuna qədər başa çatdırmalıyıq, bu, sadəcə, birinci mərhələ olacaq. Bu evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar.

Eyni zamanda, Laçın şəhərində Heydər Əliyev Fondunun xətti ilə məscid inşa ediləcək. Məscidin təməlini də mən Laçında olarkən özüm şəxsən qoydum və çox gözəl yerdə bizim dini məbədimiz yaxın gələcəkdə inşa ediləcəkdir.

Bununla paralel olaraq, Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start vermişik. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Xaricdə yaşayan ermənilər Zabux kəndində, yenə də deyirəm, o cinayəti törədən Ermənistan dövləti ilə birlikdə bir kənd salmışdılar, evlər tikmişdilər. O evlərdə indi bizim hərbi birləşmələrimizin şəxsi heyəti yerləşir. Ancaq Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır.

Bununla yanaşı, bildirməliyəm ki, Güləbird və Qorçu kəndlərinin Baş planı mənim tərəfimdən təsdiqləndi. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Yəni, gətirdiyim bütün bu rəqəmləri nəzərə alaraq, hər kəs görə bilər ki, yaxın gələcəkdə - bu il və gələn il biz Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkünü yerləşdirəcəyik.

Onu da bildirməliyəm ki, Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur - su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, yollar, Laçın şəhərinin bütün daxili yolları yenidən qurulur. Daxili yolların uzunluğu təqribən 50 kilometrdən çoxdur. Laçın şəhərinin memarlıq üslubu da göz oxşayır. Yəni, bu, nəinki Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək,- nəzərə alsaq ki, Laçının çox füsunkar təbiəti - meşələri, dağları, çayları var,- bu, bir cənnət məkan olacaqdır. Bax, biz bu işləri görürük və bu, görülən işlərin, sadəcə, bir hissəsidir. Biz azad edilmiş bütün torpaqlarda indi genişmiqyaslı quruculuq işləri aparırıq və bu işləri öz hesabımıza görürük və görəcəyik.

Siz mənim xüsusi nümayəndəm kimi artıq dərhal işə başlamalısınız, bütün bu işlərə rəhbərlik etməlisiniz. İnfrastruktur layihələri, əlbəttə ki, mərkəzi icra orqanları tərəfindən icra edilir. Eyni zamanda, siz Laçın rayonunun gələcək inkişafı ilə bağlı, iş yerlərinin yaradılması ilə bağlı, vətəndaşların rahat yaşaması ilə bağlı konkret əlavə təkliflər verməlisiniz. Çünki biz çalışırıq ki, azad edilmiş bütün rayonlarda işlər paralel surətdə getsin. Ona görə, məsələn, hər rayonda 3-4 kəndin birinci mərhələdə qurulması nəzərdə tutulur, eyni zamanda, əlbəttə ki, şəhərlər də daxil olmaq şərti ilə. Ancaq, məsələn, söhbət Laçın rayonundan gedirsə, Laçın rayonunda birinci mərhələdə qurulacaq bütün kəndlərin adları təsdiqləndi və biz birinci mərhələdə bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirəcəyik. Çünki bu, həm onların yaşaması, eyni zamanda, nəqliyyat-logistika məsələlərinin həlli üçün daha əlverişlidir. Bizim bütövlükdə təkcə Qarabağda, Şərqi Zəngəzurda deyil, digər bölgələrimizdə də dağ rayonlarında kəndlər bir-birindən aralı yerləşirdi və bu, bir çox hallarda insanların rahat yaşamasına o qədər də imkan vermirdi. Yəni, bu, ənənəvi olaraq belə qurulmuşdur. Əlbəttə ki, azad edilmiş torpaqlarda indi və gələcəkdə hər bir kənd bərpa ediləcək. Ancaq Azərbaycan dövləti öz üzərinə düşən vəzifəni bunda görür ki, biz yaxında yerləşən kəndlərin sakinlərini bir yerə yığıb onlar üçün gözəl şərait yaradaq. Yəni, biz şəhər tipli kəndlər quracağıq və mən qurulacaq bütün kəndlərin Baş planını təsdiqləmişəm. Eyni zamanda, kəndlərin xarici görkəmi də təsdiqlənib və yenə də deyirəm, həm rahat, həm də memarlıq nöqteyi-nəzərindən çox gözəl olacaq.

Əlbəttə ki, bundan sonra Laçın rayonunda ətraf mühitin qorunması birinci vəzifə olmalıdır. Biz keçmiş köçkünləri qaytaracağıq, infrastruktur yaradacağıq və orada iş yerləri yaradılacaq, çox gözəl imkanlar yaradılacaq. Ancaq qayıdacaq hər bir keçmiş məcburi köçkün özü də bilməlidir, siz də mənim nümayəndəm kimi bilməlisiniz, biz ətraf mühiti qorumalıyıq. Çünki ölkəmizin bəzi yerlərində ətraf mühitə böyük ziyan vurulur, qanunsuz işlər görülür, torpaqlar zəbt edilir, ağaclar kəsilir, yerində evlər tikilir, kənd təsərrüfatı təyinatlı torpaqlarda aidiyyəti olmayan obyektlər inşa edilir. Yəni, siz mənim nümayəndəm kimi və bütün vətəndaşlar bilməlidirlər ki, burada qayda-qanun var, özbaşına heç kim heç bir iş görə bilməz. Qaydalar nədir, qanunlar nədir, hər kəs ona əməl etməlidir. Torpaqların zəbt edilməsi, meşə fondunun məhv edilməsi və digər xoşagəlməz hallar olmamalıdır. Yəni, bu hallara dözümlülük sıfır dərəcəsində olmalıdır. Əminəm ki, öz dədə-baba torpaqlarına qayıdacaq bütün keçmiş köçkünlər, bax, bu amalla yaşayacaqlar. Dövlət orqanları onlara kömək etməlidir və nəzarət etməlidir ki, hər şey qayda-qanunla həll olunsun, tənzimlənsin.

Biz Laçın və Kəlbəcər rayonlarının su ehtiyatlarından istifadə edərək böyük bir enerji mənbəyi yaradacağıq. İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda Su Elektrik stansiyalarının tikintisi sürətlə gedir, biz 50 meqavatdan çox enerji alırıq. Birinci inşa edilən stansiya Güləbird kəndində olmuşdur, bu layihə həyata keçirilmişdir. Bütövlükdə isə qarşıya məqsəd qoyulmuşdur ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavat olsun, gələcəkdə isə 500 meqavata çatmalıdır. Laçın və Kəlbəcər rayonlarında böyük külək enerji potensialı var.

Yəni, bütün bu işlər yoluna qoyulacaq. Yenə də deyirəm, dövlət öz üzərinə düşən vəzifəni icra edir. Demək olar ki, indi bu təyinatdan sonra azad edilmiş əksər rayonlarda mənim xüsusi nümayəndələrim artıq fəaliyyətə başlayacaqdır. Hələ təkcə Kəlbəcər rayonunda təyin edilməyib, bu da olacaq. Bu ərazilərdə, eyni zamanda, yeni idarəetmə üsulu da tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir. Yəni, bu, həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir. Bax, mənim tapşırıqlarım bundan ibarətdir, siz mənim etimadımı doğrultmalısınız.

* * *

Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov dedi: Möhtərəm cənab Prezident, mənə göstərdiyiniz yüksək etimada görə Sizə minnətdarlığımı bildirirəm. Qeyd etmək istəyirəm ki, azad edilmiş ərazilərə gedərək, orada erməni barbarları tərəfindən törədilmiş böyük dağıntıları görüb bir azərbaycanlı kimi dərin sarsıntı keçirməmək olmur. Buna baxmayaraq, eyni zamanda, mən həmin regionda aparılan böyük tikinti işlərinin şahidi oldum, gördüm ki, böyük əzmkarlıq var. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı həmin əraziləri tez bir zamanda bərpa etmək, oraya köçüb təzədən oraları inkişaf etdirmək əzmindədir.

Sizi əmin etmək istəyirəm ki, mənim qarşımda qoyulan bütün vəzifə və tapşırıqları vaxtında əzmkarlıqla həyata keçirmək üçün səy və gücümü əsirgəməyəcəyəm. Əsas odur ki, Azərbaycan dövlətinə və cənab Prezident, Sizə vicdanla, təmiz və dürüst xidmət etmək mənim üçün böyük şərəfdir. Təşəkkür edirəm.

AZƏRTAC-ın materialları əsasında

Müdafiə Nazirliyinin məlumatı

30 mart 2023-cü il.

Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb.

* * *

İran İslam Respublikası Ordusunun Quru Qoşunlarının Komandanı Kiomərs Heydəri tərəfindən Azərbaycana münasibətdə çirkin iftira və böhtan xarakterli fikirlər səsləndirilmişdir.

K.Heydəri öz cəfəng fikirlərində Azərbaycanda guya "sionist" qüvvələrin olması və 44 günlük Vətən müharibəsində Azərbaycanın Suriyadan gətirilən İŞİD terroristlərindən istifadə etdiyini və onların hələ də ölkə ərazisində olduğunu iddia edir. O, eyni zamanda, İran tərəfindən Ermənistan ilə sərhəddə dəyişikliklərə icazə verilməyəcəyini deyir.

İlk öncə bildiririk ki, Azərbaycan Respublikası ərazisində hər hansı xarici qüvvələrin olması haqqında İran tərəfinin ittihamı əsassızdır və tamamilə qəbuledilməzdir. Ümumiyyətlə, Azərbaycan Respublikasının ərazisində kənar elementlər mövcud deyildir.

K.Heydəriyə xatırlatmaq istərdik ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamışdır. Bu hərbi təcavüz nəticəsində Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsi də işğal edilmişdi. Lakin İran tərəfi bir dəfə də olsun Ermənistana münasibətdə ittihamedici açıqlama verməmişdir. Əksinə, bu dövr ərzində İran-Ermənistan qardaşlığı daha da güclənmişdir. Bu gün də heç kimə sirr deyil ki, Ermənistanın dünyada iki əsas müttəfiqi varsa, onlardan biri Fransa, ikinci isə İrandır.

Azərbaycan Respublikası bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir və dövlətlərin daxili işlərinə qarışmır.

44 günlük Vətən müharibəsində Azərbaycanın guya İŞİD terrorçularından istifadə etməsinə dair ittihama cavab olaraq bildiririk ki, şanlı Azərbaycan Ordusu təkbaşına torpaqlarımızı işğaldan azad edərək zəfər salnaməsi yazmışdır. Bu iddia cəfəng ittiham və iftiradan başqa bir şey deyildir. Bu ittihamın məhz terrorizmi dəstəkləyən və adı dünyanın müxtəlif ölkələrində terror əməllərinin törədilməsində keçən dövlətin yüksək çinli hərbçisi tərəfindən irəli sürülməsi istehza və gülüş doğurur.

Azərbaycan Ordusunda kibertəhlükəsizlik təlimi keçirilir

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti "Kibertəhlükəsizlik təlimi - 2023" təlimini izləyib.

Baş idarə rəisi general-mayor Məmməd Eminov Kibertəhlükəsizlik qovşağında təlimlə bağlı müdafiə nazirinə məruzə edib.

Bildirilib ki, təlimin keçirilməsində əsas məqsəd Azərbaycan Ordusunun Elektron İnformasiya Sisteminin tərkibində bütün növ qərargahlarla, həmçinin komanda məntəqələri ilə məlumatların təhlükəsiz mübadiləsini təmin etmə bacarıqlarının təkmilləşdirilməsi, eləcə də sistemdə və digər informasiya resurslarında mövcud təhlükələr barədə istifadəçilərin maarifləndirilməsi, ehtimal olunan kiber hücumlara qarşı müdafiə qabiliyyətinin inkişaf etdirilməsidir.

Ən yeni texnoloji avadanlıqlarla təchiz edilmiş qovşaqda keçirilən təlimdə hərbi qulluqçular kibertəhlükəsizlik tədbirləri üzrə müxtəlif tapşırıqları icra etməklə bilik və bacarıqlarını daha da təkmilləşdirəcəklər.

Müdafiə naziri təlimin gedişatını müsbət qiymətləndirib və Azərbaycan Ordusunda kibertəhlükəsizlik tədbirlərinin daha da inkişaf etdirilməsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirildi

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar "dəyirmi masa" keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, dövlətimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin, eləcə də soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən sənədli film nümayiş olundu.

Tədbiri giriş sözü ilə açan İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Elşad Əbilov bildirdi ki, Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri 1918-ci ilin mart-aprel aylarında erməni-daşnak silahlı dəstələri tərəfindən Bakı şəhərində, Bakı quberniyasına daxil olan digər şəhər və qəsəbələrdə, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə törədilmiş kütləvi qırğınlar və vandalizm aktları olub. On minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetirilib, mədəniyyət abidələri, tarixi binalar və məscidlər dağıdılıb.

- Məlumat üçün qeyd etmək istəyirəm ki, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilərin orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. Bunun nəticəsi olaraq, "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı.

Dəyirmi masada çıxış edən polkovnik Qabil Talıbov əlavə etdi ki, azərbaycanlıların soyqırımından bəhs edilərkən daha çox 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Salyanda, Lənkəranda və digər bölgələrdə erməni hərbi qüvvələrinin törətdikləri qırğınlardan danışılır. 1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınına başlanılmışdır. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda, "Daşnaksütyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişlər. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner soyadlı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə yazmışdır: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlının cəsədinin qulaqları və burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

Polkovnik Mehman Kərimov isə bolşeviklərdən aldıqları döyüş sursatı ilə təpədən dırnağadək silahlanmış erməni quldur dəstələri 1918-ci ilin mart ayında Naxçıvan bölgəsinin müxtəlif yerlərində dəhşətli qırğınlar törədilməsini dəyirmi masa iştirakçılarının diqqətinə çatdırdı. Bildirib ki, Naxçıvan ərazisi hərbi anda xəyanət etdiyinə görə türk ordusundan qovulan Andranik Ozanyanın və onun quldur dəstələrinin hücumlarına məruz qaldı. Ermənilər Naxçıvan və Şərur-Dərələyəz qəzalarının kəndlərinə basqınlar etmiş, əhaliyə divan tutmuş, qadınları, uşaqları, qocaları belə öldürmüş, heç kimə rəhm etməmişdilər. 1918-ci il iyul ayının 24-də Xoy şəhəri yaxınlığında türk qoşunları tərəfindən məğlub edilən Andranik öz dəstəsi ilə Culfa bölgəsinin Yaycı kəndi ərazisindən Arazı keçərək Naxçıvana daxil olmuşdur. Naxçıvan şəhərini tutmağı öz qarşısına məqsəd qoyan Andranik Aza, Düylün, Yaycı və Dizə kəndlərinin əhalisini qılıncdan keçirmişdir. Qısa müddət ərzində bu qaniçən cəllad Ordubad dairəsinin əksər hissəsini, Culfa şəhərini və bir sıra kəndləri işğal etmişdir. Həmin vaxt Andranikin dəstəsi Gilançay və Əlincəçay vadisində çox kəndi dağıdıb viran qoymuş, əhalinin əksəriyyətini vəhşicəsinə öldürmüşdü. Andranikin ilk təcavüzü Naxçıvan qəzasının Araz çayı kənarında yerləşən Yaycı və Aşağı Aza kəndlərində olub. Naxçıvanın ən iri yaşayış məskənlərindən biri olan Yaycı kəndinin 2500 nəfərdən artıq əhalisi qətlə yetirilərək Araz çayına atılmışdır. Yaycı hadisələri ilə bağlı Nehrəm kənd sakini Tağı Nağdəliyev 14 iyun 1918-ci ildə Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun adına göndərdiyi məktubunda yazırdı: "Məlum edirəm ki, Andranikin dəstəsi İrandan Araz körpüsündən keçərək Yaycı kəndinə girmiş, həmin kənd əhalisini qılıncdan keçirərək kəndi tarmar etmişdir. Camaldın və Ərəzin kövşəninə erməni qoşunları dolubdur. Lazımi sərəncam verməkdən ötəri xəbər edirəm ki, Nehrəm kəndi qorxu içindədir".

Polkovnik Elşad Əbilov əlavə edərək vurğuladı ki, 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti elan olunmasına baxmayaraq, Bakı şəhəri və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnak quldurlarından azad edilməsində Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun xüsusi rolu olub. Qafqaz İslam Ordusunun tərkibində Osmanlı əsgərləri ilə yanaşı, Azərbaycan hərbçiləri də xidmət ediblər. Bu döyüşlərdə yüzlərlə Osmanlı və Azərbaycan əsgəri şəhidlik zirvəsinə ucalıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla azərbaycanlıların soyqırımına əsl hüquqi və siyasi qiymət verilib.

Əlbəttə, xain düşmənin törətdiyi bu vəhşiliklərin cəzası 2020-ci ildə başlanan və şanlı qələbəmizlə başa çatan Vətən müharibəsində verildi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı ordumuz torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa edib, şəhidlərimizin və soyqırım qurbanlarının qisasını düşməndən döyüş meydanında layiqincə aldı.

Kapitan
Orxan HÜSEYNLİ
"Azərbaycan Ordusu"

Kahramanmaraşda fəaliyyət göstərən hərbi tibb personalımız təltif olundu

Tarixin müxtəlif mərhələlərində Azərbaycan - Türkiyə qardaşlıq münasibətləri özünü parlaq büruzə verib. Hər iki xalq istər xoş günlərində, istərsə də çətin, ağrılı-acılı vaxtlarında həmişə bir-birinin yanında olub, birlik nümayiş etdirərək sevinclərini, kədərlərini bölüşüb.

Fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında Azərbaycan qardaş dövlətin yanında olaraq nin müvafiq əmrinə əsasən təltif olundu. Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında təltif olunan hərbi qulluqçuları təqdimat mərasimi keçirildi.

həm mənəvi, həm də maddi dəstəyini göstərdi, həmrəyliyini nümayiş etdirdi. Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda yaralananlara şəfa, dünyasını dəyişənlərə rəhmət dilədi, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzuladı. Dövlətimizin başçısı daha sonra Türkiyənin ölkəmizdəki səfirliyinə gedərək başsağlığı verdi. Bu acı faciənin fəsadlarının tezliklə aradan qaldırılmasında qardaş dövlətin yanında olmağı özünün şərəf işi, qardaşlıq borcu adlandırdı.

Türkiyədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərmək məqsədilə qardaş ölkəyə ezam olunmuş və qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmiş hərbi tibb personalı müdafiə nazirliyinin Baş Klinik Hospitalında təltif olunan hərbi qulluqçuları təqdimat mərasimi keçirildi.

Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti general-mayoru Firudin Nəbiyev mərasimdə çıxış edərək bildirdi ki, hər bir xalq, dövlət təbii fəlakətlərə məruz qala bilər. Amma belə anlarda dost, qardaş olan dövlətlərin bir-birinə olan münasibəti daha çox diqqət mərkəzində olur. Azərbaycanla Türkiyə arasında olan yaxın münasibət də əsrlərdir davam etməkdədir. Tarixin ən çətin məqamlarında hər iki dövlət biri-birinə arxa-dayaq olub. Birinci Dünya müharibəsi zamanı Azərbaycan Rusiyanın tərkibində olsa da, Osmanlı dövləti istəmədən döyüşlərə sürüklənəndə soydaşlarımız qardaşlarının yanında olmağı özünə borc bildi. Çanaqqala döyüşlərində minlərlə azərbaycanlı şəhid oldu...

Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan idarə rəisi vəzifəsini icra edən tibb xidməti general-mayoru F.Nəbiyev qeyd etdi ki, bu xalqların bir-birinə münasibəti qardaşlığın zirvəsi, ən uca məqamıdır. 44 günlük Vətən müharibəsinin ilk saatlarından Türkiyə Azərbaycanın yanında olaraq ən böyük dəstək verdi. Türkiyədə baş verən zəlzələ bütün Azərbaycanı sarsıtdı. Ölkəmiz türk bacı və qardaşlarımızın üzləşdiyi fəlakəti özünün faciəsi bildi və əlindən gələni əsirgəmədi.

Tibb xidməti general-mayoru həmçinin vurğuladı ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Türkiyəyə ezam olunan tibb heyətimizin fəaliyyəti qardaş ölkədə yüksək qiymətləndirilib. Hərbi tibb personalımız Kahramanmaraşda Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə, ümumilikdə 81 cərrahi əməliyyat icra edib, 517 nəfərə ambulator yardım göstərib.

Sonra müdafiə naziri general-polkovnik Zakir Həsənovun tibb personalımızın təltif olunması ilə bağlı müvafiq əmri oxundu.

Tədbirdə çıxış edənlər hərbi həkimlərimizin Vətən müharibəsində də peşəkarlıq nümayiş etdirdiyini və onların Azərbaycan Respublikasının Prezidenti, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğuladılar.

Mərasimin sonunda Azərbaycan Ordusunun 20 nəfərlik hərbi tibb personala növbəti hərbi rütbə, medal və fəxri fərmanlar təqdim olundu.

Mərasim bitdikdən sonra təltif olunan tibb heyəti ilə söhbətləşdik.

Vaxtından əvvəl növbəti "Tibb xidməti polkovniki" hərbi rütbəsi ilə təltif olunan Niyaməddin Ağamaliyev bildirdi ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu dünyanın diqqətində oldu. "Qardaş ölkədə böyük dağıntılara, insan tələfatına səbəb olan təbii fəlakətin yaratdığı acını Türkiyə xalqı ilə birgə yaşayan xalqımız ilk gündən səfərbər oldu. Tarixin bütün sınaqlarından şərəflə çıxan qardaş ölkənin bu acını da arxada qoyub hədəflərinə doğru inamla irəliləyəcəyinə əminik".

"Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medal ilə təltif olunan tibb xidməti polkovnik-leytenantı Səlahəddin Təhməzov dedi ki, fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına dövlətimiz tərəfindən göstərilən dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin əyani sübutudur. Azərbaycan əsl qardaş dəstəyini nümayiş etdirdi.

Fəxri fərmanla təltif edilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Səadət İbrahimova rəhbərliyin göstərdiyi etimadı doğrultduğuna görə qürurlandığını bildirdi.

Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"

Hərbi attaşelər Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət ediblər

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlar əvvəlcə Hərbi İnstitutun ərazisindəki muzeydə Ulu Öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən foto stendlə tanış olublar.

Daha sonra qonaqlar təhsil müəssisəsinin ərazisi, tədris korpusları və maddi-texniki bazasını ziyarət edib burada kursantlar üçün yaradılan şəraitilə tanış olub, keçirilən tədris prosesini izləyiblər.

Xarici ölkələrin hərbi nümayəndələrinə xüsusi təyinatlı təhsil müəssisəsinin tarixi və fəaliyyəti barədə brifinq

təqdim olunub. Qonaqlara, həmçinin görüşün bədii hissəsində hərbi orkestrin ifa etdiyi musiqi kompozisiyaları ərmağan edilib.

Sonda qarşılıqlı hədiyyələr mübadiləsi olub və xatirə fotosu çəkdirilib.

“Şəhidlərimizin qəhrəmanlıq yolunu Böyük Qələbə ilə tamamladıq”

Ötən əsrin 90-cı illərinin sonlarında Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda apardığımız mübarizə salnaməsində 2016-cı ilin Aprel döyüşlərinin xüsusi yeri var. Bu döyüşlərdə qazanılmış qalibiyyət 2020-ci ilin Vətən müharibəsində tarixi Zəfərimizin başlanğıcı oldu. Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqımızın birliyinin, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz istənilən an işğalda qalmış torpaqlarını azad etməyə qadirdir. İkinci Qarabağ Müharibəsində olduğu kimi, 7 il öncə baş verən döyüşlər də məhz Ermənistan hərbi birləşmələrinin təxribatı nəticəsində baş vermişdi. 2016-cı il aprelin ilk günü Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində törətdiyi təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun hissələri sürətli əkshəmlə əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı. Dörd gün davam edən hərbi əməliyyatlar tarixə Aprel döyüşləri kimi düşdü. Bu döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Ordumuz əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. İgidlərimizin qanı bahasına Lələtəpə kimi əhəmiyyətli yüksəklik işğaldan azad olundu. Bu yüksəkliyin azad edilməsi ilə 1994-cü ildə düşməndən təmizlənən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin edildi. 2 min hektardan artıq ərazi azad olundu. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu. Aprelin 5-də hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs razılaşması imzalandı. Aprel döyüşlərindəki qələbə İkinci Qarabağ müharibəsindəki tarixi zəfərimizin başlanğıcı kimi tarixləşdi. Həmin döyüşlərdə Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi ilə Cocuq Mərcanlı kəndi sakinlərinin doğma yurda qayıdışı gerçəkləşdi. Bu, Qarabağa Böyük qayıdışın ilk müjdəsi idi. Aprel döyüşləri Ermənistanın "məğlubedilməz ordu" mifini heçə endirdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Aprel döyüşlərinin iştirakçısı olmuş hərbçilərlə görüşündə demişdir: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir". Bu döyüşlərdə Azərbaycanın zabit, gizir və əsgərləri əsl cəsarət və igidlik nümunələri göstərdilər. Zabit və əsgərlərimizin hər biri cəbhədə, sözün həqiqi mənasında, mətanət, dözümlülük, qələbə əzmi nümayiş etdirdilər.

Həmin tarixi günlərin 7-ci il dönümü münasibətilə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Hərb Tarixi Muzeyində Aprel döyüşlərinin iştirakçıları olan hərbi qulluqçuların iştirakı ilə media-tur keçirildi. Tədbirdə həm Aprel döyüşlərinin, həm də İkinci Qarabağ müharibəsinin iştirakçısı olan, qəhrəmanlıqları ilə tarix yazan oğullarımız düşüncələrini bölüşdülər.

Polkovnik-leytenant Nahid Muradov:

- 2016-cı ilin aprelin ilk günlərində cəbhə xəttində vəziyyətin kəskinləşməsi nəticəsində atəşkəs pozuldu. Ermənistan silahlı birləşmələrinin mart ayının sonlarında ordumuzun mövqelərinə, kənd və qəsəbələrimizə artilleriya silahlarından ağır zərbələr endirməsi cavabsız qala bilməzdi. Yaşayış məntəqələrimizi atəş altında saxlayan yüksəkliklərdə yerləşən düşmən mövqelərini dərhal susdurmaq üçün əks-hücuma keçdik. Tərtər, Goranboy və Füzuli rayonları istiqamətində düşmənin atəşkəs dövründə işğal etdiyi ərazilərimizdə durmadan möhkəmləndirdiyi və keçilməz hesab etdiyi ön xətt mövqelərini qısa vaxtda yarmağı bacardıq və erməni hərbi birləşmələrini qovmağa başladıq. Çevik hərəkətlə irəliləyərək önəmli yüksəklikləri və 2 min hektardan artıq ərazini düşmən işğalından azad etdik. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Aprel döyüşləri və İkinci Qarabağ müharibəsində qazandığımız tarixi qələbələrimiz, Azərbaycan dövlətinin güclü iqtisadiyatının, qüdrətli ordusunun, yüksək döyüş əzminə malik igid əsgərlərinin olduğunun göstəricisi oldu. Həm də bütün dünyaya göstərdik ki, təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu sahəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirtdiyi uğurlu islahatların nəticəsində ordumuz regionun ən güclüsüdür. Ordu quruculuğu istiqamətində aparılan islahatlara şəxsən nəzarət edən cənab Prezidentin Ali Baş Komandının diqqət və qayğısı sayəsində ordumuzun təminat və təchizatı xeyli zənginləşdirilib. Bir çox xarici ölkələrdən, xüsusilə də qardaş Türkiyədən yeni texnikalar, yüksək dəqiqliyə malik silah-sursat, ən müasir tələblərə cavab verən hərbi avadanlıqlar alınaraq Azərbaycan Ordusunun arsenalına daxil edilib. Bunlar da ordumuzun qüdrətini, hərbçilərimizin döyüş hazırlığının səviyyəsini daha da yüksəldir. Ali Baş Komandanın tapşırığı ilə aparılan uğurlu islahatların nəticəsidir ki, bü gün dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir.

Kapitan Asim Tapdıqov:

- Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən, seçdiyim müqəddəs peşədən həmişə qürur duymuşam. Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində iştirakımdan sonra qürurum daha da artdı. Çünki hər iki döyüşlərdə ordumuzun yazdığı qəhrəmanlıq salnaməsində mənim də payım var. Bir vətəndaş, bir zabit üçün bundan sevincli, fərəhli hiss ola bilməz. Aprel döyüşlərinin 7-ci ildönümüdü. Qədirbilən xalqımız, cəmiyyətimiz həmin günləri unutmur, unutdurmur. Dövlə-

timizin biz döyüşçülərə, Vətən müdafiəçilərinə göstərdiyi yüksək diqqət və qayğı, xalqımızın sonsuz ehtiramı və güvəni bizi daha da ruhlandırır. Bunlar hər bir hərbçinin mənəvi-psixoloji hazırlığına müsbət təsir edən mühüm amillərdir. Həmin döyüşlərdə inamlı qələbəmizlə ordumuzun gücünü və şəxsi heyətin yüksək döyüş hazırlığına malik olduğunu sübut etdik. Təlim mərkəzlərində keçirilən taktiki təlimlərdə, nəzəri və praktiki məşğələlərdə qazandığımız təcrübələr öz bəhrəsini verdi. Onu da qeyd edim ki, artilleriya-raket zərbələrindən bacarıqla istifadə edən bölmələrimizin yeni texnologiyaların tətbiqi ilə koordinatları əvvəlcədən müəyyən edilmiş düşmən mövqelərinə endirilən atəş zərbələrinin dəqiqliyi və bu üzdən düşmən itkilərinin qat-qat artıq olması, nəinki döyüşlərdə iştirak edən Ermənistan ordusunun şəxsi heyətinin, hətta Ermənistan əhalisinin vahiməyə düşməsinə səbəb oldu. Yəni Azərbaycan hərbçilərinin peşəkarlığı öz sözünü dedi. Həmçinin şəxsi heyətin vətənpərvərliyi, milli-mənəvi dəyərlərimizə bağlılığı, sonsuz Vətən sevgisi qələbələrimizi təmin edən əsas amillərdən oldu. Döyüş meydanında hər kəs yüksək əhval-ruhiyyədə vuruşurdu. Ordumuzun yalnız kiçik bir qismi Aprel döyüşlərinə cəlb edildi. Döyüşlərə cəlb edilən bölmələrimizin şəxsi heyəti döyüş tapşırığını uğurla yerinə yetirmək üçün canını, qanını, gücünü və qüvvəsini əsirgəmədi. Həmçinin dünya azərbaycanlılarının həmrəyliyi, dövlət-xalq-ordu birliyi də Aprel döyüşlərində qazandığımız qələbənin əsas amillərindən oldu. Azərbaycan Ordusu Ermənistan ordusunu döyüş meydanında darmadağın etdi. Beləliklə, Ermənistan tərəfinin illər boyu irəli sürülən məğlubedilməzlik mifi tamamilə alt-üst oldu. İstər Aprel döyüşlərində, istərsə də İkinci Qarabağ müharibəsində Azərbaycan nəinki döyüş meydanında, eləcə də siyasi-diplomatik müstəvidə də uğur qazandı. Bu da Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əzmkarlığının, qətiyyətinin, siyasi iradəsinin təntənəsi idi.

Kapitan Adil Bəşirov:

- Azərbaycan Ordusunun yüksək peşəkarlığa malik kadrlarla kompleksləşdirilməsi, peşəkar kadr heyətinin formalaşdırılması, inkişaf etdirilməsi və onların səmərəli istifadə olunması Aprel döyüşlərində, eləcə də Vətən müharibəsində qazandığımız tarixi zəfərlərdə qələbəmizi təmin edən əsas amillərdən oldu. Həmçinin döyüşlər göstərdi ki, şəxsi heyətin müqavilə əsasında xidmət edən hərbi qulluqçularla komplektləşdirilməsi də ordumuzun döyüş hazırlığının artırılması istiqamətində atılan uğurlu addımlardandır. Belə ki, döyüşlər başlandığı ilk gündən təchizatın fasiləsiz olaraq təmin olunması, ehtiyatların vaxtında çatdırılması, qoşun xidmətinin düzgün qurulması, fasiləsiz rabitə, kəşfiyyat və radioelektron mübarizənin düzgün icrası, tibbi xidmətin yüksək səviyyəsi, yerli icra orqanları və ictimaiyyətlə əlaqələrin effektiv təşkil edilməsi qələbələrimizi şərtləndirən səbəblər idi. Təbii ki, komandir heyətinin də peşəkarlığını və döyüşü düzgün idarəetməsini, ağıllı taktiki gedişlərini də xüsusi vurğulamalıyıq. Bir sözlə, rütbəsindən və vəzifəsindən asılı olmayaraq, hamı xalqımızın inamını, Ali Baş Komandanın etimadını doğruldaraq döyüş tapşırıqlarının öhdəsindən uğurla, əzmkarlıqla gələrək qələbəni təmin etdi. Döyüşçülərlə çiyin-çiyinə öz vəzifələrini yerinə yetirən, yüzlərlə, minlərlə hərbçinin sağ qalmasında əməyi olan həkimlərimizin də əziyyətini vurğulamaq istəyirəm. Aprel döyüşləri başlayan kimi hospitallarımızın hərbi həkimləri və tibb heyəti də öz vəzifə borcunu layiqincə yerinə yetirdi. Onlar ilk saatlardan döyüşlər gedən ərazilərə yaxın bölgələrdə təyinatı üzrə fəaliyyət göstərən Mobil Səhra Cərrahiyyə Hospitallarında yaralıların müalicəsini, eləcə də döyüşlərin

qızğın getdiyi ərazilərdə yaralananların çıxarılması, ilkin tibbi yardımın göstərilməsi işlərini yüksək peşəkarlıqla yerinə yetirdilər. Məhz itkilərimizin az olmasının da əsas səbəblərindən biri tibbi personalımızın səmərəli fəaliyyətinin nəticəsidir. Artıq 7 ildir ki, Aprel döyüşləri Azərbaycanda xalq-dövlət-ordu birliyinin real nümayişi, şanlı tariximiz, böyük qələbəmiz, hərbçilərimizə fəxr, başucalığı gətirən tarixi an, gələcək qələbələrimizin başlanğıcı kimi qeyd edilir. Xalqımız bu şanlı tarixi heç vaxt unutmayacaq, unutdurmayacaq. Aprel döyüşlərin-

də qəhrəmancasına canından keçən şəhidlərimizin əziz xatirəsini yüksək ehtiramla yad edirik. Artıq torpaqlarımızın azadlığı uğrunda canından keçən bütün həmvətənlərimizin ruhları şaddır, çünki biz onların qəhrəmanlıq yolunu İkinci Qarabağ müharibəsində qazandığımız Böyük Qələbə ilə tamamladıq, ərazi bütövlüyümüzü təmin etdik.

Leytenant Famil Hüseynov:

- Aprel döyüşləri zamanı gizir hərbi rütbəsində xidmət edirdim. Həmin gün adi günlərdə olduğu kimi xidməti fəaliyyətlərimizi yerinə yetirirdik. Gecəyarı qəflətən atəş səsləri eşidildi. Düşmən qüvvələri hücuma keçmişdi. Düzdür, bir neçə gün idi ki, ermənilər atəşkəsi tez-tez pozur, yaşayış yerlərimizi atəşə tuturdular. Lakin bu dəfə irimiqiyaslı təxribata əl atıb, mövqelərimizə hücum etmişdilər. Bölməyə "Həyəcan!" çağırışı verildi. Az vaxtda tanklarımızı, döyüş maşınlarımızı işə saldıq. Heyət nəfərləri cəld hərəkətlərlə silahlarını götürüb döyüş maşınındakı yerlərini tutdular. Əks-hücuma keçdik. Ağır döyüşlər başlandı. Təxribatın qarşısını layiqincə aldıq. Bizim əsas məqsədimiz Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinə yaxın kəndlərdə yaşayan və qarşı tərəfin atəşinə məruz qalan dinc Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etmək üçün erməni hərbi birləşmələrinin atəş nöqtələrini zərərsizləşdirmək idi. Məqsədimizə tam nail olduq. Düşmənə ağır zərbələr endirərək, onları geri çəkilməyə məcbur etdik. Aprel döyüşlərində uğursuzluğa düçar etdiyimiz Ermənistan silahlı qüvvələrinin bölmələri böyük itkilərə məruz qaldı. Düşmənin 320-dən artıq canlı qüvvəsi məhv edildi, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Suqovuşan yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissəsi darmadağın olundu. Strateji yüksəklikləri nəzarətə götürərək minlərlə hektar ərazimizi azad edildi. Biz Aprel döyüşlərində və onun davamı olaraq İkinci Qarabağ müharibəsində qazandığımız şanlı qələbəmizlə Ali Baş Komandanımız İlham Əliyev cənablarının dəfələrlə bəyan etdiyi "Azərbaycan bir qarış torpağını da düşmənə güzəştə getməyəcək və Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu ola bilməz" sözlərini əyani şəkildə göstərdik və əzəli torpaqlarımızı işğaldan azad etdik.

Baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"

31 mart soyqırımı ilə əlaqədar silsilə anım tədbirləri keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələrində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, anım mərasimlərində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların və soyqırımı qurbanlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlərdə qeyd olunub ki, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri tərəfindən azərbaycanlılar kütləvi şəkildə vəhşicəsinə qətlə yetirilib. Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə hər il mart ayının 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı dəhşətlərinin dünyaya tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərdən danışıblar.

Anım tədbirlərində ədəbi-bədii kompozisiyalar, fotosərgilər, sənədli filmlər nümayiş etdirilib.

Hərbi qulluqçular tərəfindən soyqırımı qurbanlarının abidələri ziyarət olunub, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub.

* * *

Heydər Əliyev adına Hərbi İnstitutda 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan "Qan yaddaşımızdır" adlı anım mərasimində məktəbin zabit, müəllim heyəti, kursantlar iştirak etdilər.

Sonra 31 mart - Azərbaycanlıların Soyqırımı Gününü əks etdirən sənədli film nümayiş etdirildi.

Çıxış edənlər bildirdilər ki, erməni millətçilərin xalqımıza qarşı apardığı, təcavüz, zorakılıq, soyqırımı tarixi uzun illərə gedib çatır. "Çar Rusiyası dövründə Qafqazda məskunlaşdırılan ermənilər tarixi ərazilərimizdə barbar aktlar törətmiş, soydaşlarımıza qarşı divan tutmuşdur. "Dənizdən-dənizə böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan ermənilər havadarlarının hərtərəfli köməyi ilə əzəli torpaqlarımızın işğalını qarşılarına məqsəd qoymuşdular. Zaman-zaman baş verən qanlı toqquşmalar nəticəsində xalqımıza qarşı öz məkrli niyyətlərini yerinə yetirən ermənilərin törətdiyi cinayətlərin ən qanlı mərhələsi XX əsrin əvvəllərində baş vermişdir. Erməni millətçiləri tərəfindən soydaşlarımızın hüquqlarının pozulması, onların qeyri-insani rəftara məruz qalması, deportasiya olunması daşnakların törətdiyi qeyri humanist aktlardandır. 31 Mart soyqırımı isə öz dəhşətləri ilə tarixin ən qanlı səhifələrindən biridir. 1918-ci ilin həmin tarixində mənfur ermənilər tərəfindən xalqımıza qarşı törədilən soyqırımı siyasəti zamanı günahsız azərbaycanlılar xüsusi amansızlıqla qətlə yetirildi. Soyqırıma məruz qalan soydaşlarımızın başlarına gətirilən cinayət əməlləri tarixin yaddaşına qanlı sələnmə olaraq həkk olundu. Erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə siyasətinə hüquqi qiyməti verən ilk şəxs məhz Ulu Öndər Heydər Əliyev oldu. Hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ermənilər tərəfindən xalqımıza qarşı yürüdülən soyqırımı və deportasiya fəaliyyətlərini beynəlxalq auditoriyaya tam sübutu ilə çatdırmışdır. Uzaqgörən dahi rəhbər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı ilə xalqımıza qarşı törədilən ən qanlı cinayətlərdən biri olan 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə hüquqi-siyasi qiymət vermişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən ölkəmizin ədalətli mövqeyi sərgilənir, xalqımıza qarşı törədilən soyqırımla bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması yönündə mühüm işlər görülür.

Çıxışlar başa çatdıqdan sonra Həzi Aslanov adına Ordu İdeoloji Mədəniyyət Mərkəzinin incəsənət nümayəndələri 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan milli vətənpərvərlik mövzusunda ədəbi-bədii kompozisiya nümayiş etdirdi.

Baş leytenant
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"

"1918-ci il mart hadisələri - unudulmayan tarix" adlı anım tədbirində Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə məruzə ilə çıxış etdi. Muzeyin rəisi qeyd etdi ki, mart soyqırımının üstündən illər keçsə də, bu vəhşilik, bu soyqırım heç vaxt unudulmayacaq. "Xalqımıza qarşı ermənilərin törətdiyi soyqırımı siyasətinin tarixi XIX əsrin əvvəllərindən başlayır. Həmin dövrdə torpaqlarını Cənubi Qafqaza doğru genişləndirməkdə olan çar Rusiyası ermənilərdən vasitə kimi yararlanırdı. Azərbaycanın ərazilərində ermənilərin məskunlaşdırılması ilə azərbaycanlıların öz torpaqlarından qovulması və kütləvi qırğına məruz qalması faşizm siyasətinin əsasını təşkil edirdi. Təkcə Bakıda bir həftə ərzində minlərlə günahsız müsəlman əhali vəhşicəsinə qətlə yetirilmişdi. Ermənilərin azərbaycanlılara qarşı soyqırımları XX əsrin sonlarında bir daha təkrarlandı. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərində xalqımıza qarşı soyqırımı törətdilər".

Ehtiyatda olan polkovnik Əzizağa Qənizadə məruzəsinin sonunda vurğuladı ki, Sovet imperiyası dövründə gizli saxlanılmış həqiqətlər Azərbaycan müstəqillik qazandıqdan sonra aşkarlandı. Ulu Öndər Heydər Əliyev ölkəmizdə hakimiyyətə qayıtdıqdan sonra "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini yad etmək məqsədilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan olundu.

Daha sonra muzeyin tədqiqatçı-baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov çıxış edərək ermənilərin Azərbaycan ərazisində yerləşdirilməsindən ölkəmizə qarşı apardıqları əsassız ərazi iddialarından, dəhşətli qırğınların tarixindən söz açaraq dedi ki, "böyük Ermənistan" xülyasıyla yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərdə olub. Həmin vaxtlarda ermənilər Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında minlərlə azərbaycanlını amansızcasına qətlə yetiriblər. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində daşnak erməni silahlı dəstələrinin və bolşevik qoşunlarının azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən, on minlərlə soydaşımız etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib.

Mərasimin sonunda iştirakçılar muzeyin ekspozisiyaları ilə tanış oldular, xatirə şəkilləri çəkdirdilər.

Hüsniyyə İDRİSOVA
"Azərbaycan Ordusu"

Milli Qəhrəmanın doğum gününə həsr olunan anım mərasimi keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, İkinci Fəxri xiyabanda Azərbaycanın Milli Qəhrəmanı, Aprel döyüşlərinin şəhidi polkovnik-leytenant Murad Mirzəyevin doğum günü münasibətilə anım tədbiri keçirilib.

Müdafiə Nazirliyinin hərbi qulluqçuları, qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları, məktəblilər, ictimaiyyət nümayəndələri və digər qonaqların iştirak etdiyi mərasimdə əvvəlcə Milli Qəhrəmanın məzarı ziyarət edilib, önünə əklil və tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

Sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Mərasimdə çıxış edənlər 2016-cı ilin aprel ayının 1-dən 2-nə keçən gecə Azərbaycan Ordusunun Ermənistan hərbi birləşmələrinin törətdiyi təxribatlara qarşı başlayan genişmiqyaslı əks-hücum əməliyyatında qəhrəmancasına şəhid olan M.Mirzəyevin vətənpərvərliyindən, şərəfli ömür və şanlı döyüş yolundan danışaraq onun daima şəxsi heyətə örnək olacağını vurğulayıblar.

Bildirilib ki, Azərbaycan hərb tarixinə qızıl hərflərlə həkk olunan və 44 günlük Vətən müharibəsinin başlanğıcı hesab edilən Aprel döyüşlərində M.Mirzəyev kimi oğulların igidliyi, qəhrəmanlığı sayəsində düşmən işğalında olan bəzi strateji əhəmiyyətli yüksəkliklər azad olunub, Ermənistan ordusunun məğlubedilməzlik mifi darmadağın edilib.

Qeyd olunub ki, igidimizin göstərdiyi rəşadət dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa edib, şəhidlərimizin qisası döyüş meydanında düşməndən layiqincə alınıb.

Milli Qəhrəmanın ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya görə Azərbaycanda Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildiriblər.

Azərbaycanın Milli Qəhrəmanı Anatoliy Davidoviçin xatirəsi anılıb

Azərbaycan Respublikasının Belarus Respublikasındakı səfirliyinin əməkdaşları və hərbi attaşelik aparatının nümayəndələri Azərbaycanın Milli Qəhrəmanı, Belarus əsilli Davidoviç Anatoliy Nikolayeviçin anadan olmasının ildönümü ilə əlaqədar onun məzarını ziyarət edərək önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Sonra Milli Qəhrəmanın Slutskda yaşayan anası Kima Davidoviç də ziyarət olunub, onun səhhəti və qayğıları ilə yaxından maraqlanılıb.

1992-ci ilin iyunun 13-də döyüşlərin birində qəhrəmancasına həlak olan mayor A.Davidoviçin şücaətinin Azərbaycan və Belarus xalqları arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirdiyi, xatirəsinin hər iki ölkədə daim ehtiramla yad olunduğu xüsusi qeyd edilib.

K.Davidoviç oğlunun xatirəsinə olan ehtirama, eləcə də özünə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə, o cümlədən Azərbaycan dövlətinin Belarusdakı səfirliyinin və hərbi attaşelik aparatının əməkdaşlarına minnətdarlığını bildirib.

Milli Qəhrəmanın anası, həmçinin 2019-cu ildə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun onu xəstəxanada ziyarət etməsini məmnuniyyət hissi ilə xatırlayıb.

İsa İSMAYILOV
Müdafiə Nazirliyi
Mətbuat Xidməti

Azərbaycan HHQ-nin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra edirlər

Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri 2023-cü tədris ilinə hazırlıq planına uyğun olaraq, təlim-məşq uçuşlarını icra edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, uçuşlardan öncə hərbi pilotlar ən müasir trenajorlarda uçuş vərdişlərini məşq etdirir, eləcə də heyətə təhlükəsizlik qaydaları çatdırılır, daha sonra praktiki uçuşlar həyata keçirilir.

Döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən məşqlərdə aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilir.

Qalxma və enmə, müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar hərbi pilotlar tərəfindən yüksək peşəkarlıqla icra olunur.

Xəbərlər: hadisələr, faktlar

Sığınacaqlardan qaçan iki terrorçu Türkiyə ordusuna təslim olub



Türkiyənin Milli Müdafiə Nazirliyi İraqın şimalında sığınacaqlardan qaçan 2 terrorçunun Haburdakı sərhəd məntəqəsinə təslim olduğunu bildirib.

Nazirliyin yaydığı açıqlamada deyilir: "Türk Silahlı Qüvvələrinin təsirli və qətiyyətli əməliyyatları ilə terror təşkilatı PKK-nın parçalanması davam edir. Şimali İraqda sığınacaqlardan qaçan 2 terrorçu Haburdakı sərhəddə təslim oldu. Fərqi yoxdur. Onların olduğu yerdə Mehmetcikin nəfəsi terrorçuların kürəyindədir. Davamı olacaq".

Avstraliya ABŞ-dan yeni modifikasiyalı "Tomahawk" raketləri almaq istəyir

Avstraliya ABŞ-dan 200 ədəd "Block V" və 20 ədəd "Block IV" modifikasiyalı "Tomahawk" qanadlı raketləri almaq istəyir. Sövdələşmənin ümumi dəyəri 985 milyon dollardır.

Bu ərəfədə ABŞ Dövlət Departamentinin haqqında söhbət gedən razılaşmanı təsdiq etdiyi məlum olub.

Kanberra uzaq məsafədə yerüstü hədəflərə zərbə endirə biləcək raketlərin "Hobart" esminesində quraşdırılacağını bildirib. Həmçinin "Block V" modifikasiyalı raketlər suda üzən obyektlərə hücum edə və uçuş zamanı hədəfini dəyişə bilir.

"Defense news" nəşrinin analizinə görə, 1,6 min kilometr uzaqlıqdakı hədəfləri vura biləcək "Tomahawk" raketləri Çinin müvafiq olaraq 4 min və 2,1 min kilometr uçuş məsafəsinə malik orta mənzilli DF-26 və DF-21 ballistik raketlərinin olduğu Asiya-Sakit Okean regionu üçün xüsusilə əhəmiyyətli silahdır.

NATO-nun baş katibi: Finlandiyanın üzvlük sazişini ratifikasiya etdiyi üçün Türkiyə parlamentini alqışlayıram

NATO-nun baş katibi Yens Stoltenberq Finlandiyanın alyansa daxil olmaq ərizəsini təsdiqləyən Türkiyə parlamentinin qərarını alqışladığını bildirib.

Bu barədə o tviter hesabında yazıb.

"Mən Finlandiyanın üzvlük sazişini ratifikasiya etdiyi üçün Türkiyə parlamentini alqışlayıram. Bu, bütün NATO ailəsini daha güclü və təhlükəsiz edəcək", - deyə o əlavə edib.

Qeyd edək ki, ötən gün Türkiyə parlamenti Finlandiyanın NATO-ya daxil olması ilə bağlı protokolun ratifikasiyası haqqında qanun layihəsini təsdiqləyib.

Beləliklə, Şimali Atlantika Alyansının bütün dövlətləri Helsinkinin ərizəsini ratifikasiya ediblər. Qalan rəsmiləşdirmələr başa çatdıqdan sonra Finlandiya rəsmi olaraq NATO-ya üzv olacaq.

ABŞ-də iki helikopterin toqquşması nəticəsində doqquz hərbçi həlak olub

ABŞ Silahlı Qüvvələrinə məxsus iki helikopterin səmada toqquşması nəticəsində azı doqquz hərbçi həlak olub.

Qəza martın 29-da yerli vaxtla saat 22:00-radələrində (Bakı vaxtı ilə 30 mart saat 06:00) baş verib.

ABŞ Silahlı Qüvvələrinin 101-ci hava-desant diviziyasına məxsus iki "Black Hawk" helikopteri Kentukki ştatının Triqq dairəsində keçirilən təlim zamanı toqquşub. Hadisə ilə bağlı araşdırma başlayıb.

AZƏRTAC-ın
materialları əsasında

Fiziki hazırlıq

"Hazırlıqlı əsgər döyüş meydanında əzmkar olur"

Ordumuzun şəxsi heyətinin döyüş qabiliyyətinin artırılmasında fiziki hazırlığın rolu əvəzsizdir. Çünki fiziki cəhətdən hazırlıqlı əsgər döyüş meydanında daha əzmkar, daha iradəli olur. Ona görə də hərbi hissə və birləşmələrdə gənc əsgərlərin fiziki hazırlığına xüsusi önəm verilir. Hərbi hissələrdə şəxsi heyətin fiziki hazırlığının artırılması məqsədilə hərtərəfli şərait yaradılıb. Günün tələblərinə cavab verən idman şəhərcikləri salınıb. Geniş futbol meydançası, müasir idman qurğuları və avadanlıqları hərbçilərimizin istifadəsinə verilib.

"N" hərbi hissəsinin idman şəhərciyi də şəxsi heyətin fiziki hazırlığı üçün lazımi idman qurğuları ilə təmin olunub. Hərbi hissədə olarkən gənc əsgərlərin digər hazırlıqları ilə yanaşı, fiziki hazırlığı ilə də maraqlandıq. Öyrəndik ki, gənc əsgərlərin fiziki hazırlıq saatı yenicə başlayıb. İdman qurğularında hazırlığını artıran şəxsi heyət diqqətimizi çəkdi. Gənc əsgərlər verilən tapşırıqları məharətlə yerinə yetirir, cəld, çevik hərəkətlərlə idman vərdişlərini artırırdılar.

Gənc əsgərlərin fiziki hazırlıqlarını artırmasında yaxından iştirak edən gizir Zaur Güləhmədov hərbi xidmətdə idmanın önəmliliyini vurğuladı. Bildirdi ki, fiziki hazırlığı məqbul olmayan, zəruri vərdişləri mənimsəməyən əsgər təlim meydanında, eləcə də döyüş tapşırıqlarını yerinə yetirən zaman bəzi çətinliklərlə qarşılaşır. Ümumiyyətlə, fiziki cəhətdən möhkəm olan əsgər yüksək döyüş hazırlığına malikdir. Komandanlıq gənc əsgərlərin idman vərdişlərinin artırılmasına böyük diqqət ayırır. Onlar məşğələ prosesində tələb olunan normativləri yerinə yetirir, turnikdə dartınaraq əzələlərini möhkəmləndirir, paralel qollarda güclərini sınayırlar. Onu da qeyd edim ki, hazırlıqlı əsgərlərimiz idman vərdişlərini mükəmməl mənimsəyirlər. Respublikamızın peşəkar idman arenalarında yüksək nailiyyətlər qazanırlar. Əsgərlərimizin bir çoxu ölkəmizdə keçirilən müxtəlif növ idman yarışlarının qalibi olub, diplomlara layiq görülüblər. Bu baxımdan, "Sağlam bədəndə sağlam ruh olar" və "İdman sağlamlığın rəhnidir" kimi devizlər də təsadüfi səslənməyib.

Əsgər Nicat Quliyev idmanın qaydasız döyüş növü ilə məşğul olduğunu deyərək bildirdi ki, Azərbaycan əsgəri mənəvi cəhətdən olduğu kimi, fiziki baxımdan da sağlamdır. "Respublikamızda keçirilən yarışlarda paytaxt birinciliyini qazanmışam. Bir neçə yarışın qalibi olmuşam. Hərbi xidmət dövründə də idman sahəsində əldə etdiyim bacarıqlarımı daha da artırmağa çalışıram. Hərbi hissəmizdə fiziki hazırlıq dərsləri üçün gözəl şərait yaradılıb. Burada fiziki hazırlığımızı artırmaqla gələcəkdə keçiriləcək yarışlarda uğurlu nəticələr qazanmağımıza möhkəm zəmin hazırlayırıq".

Gənc əsgərlərdən Nihat Yusifov futbol üzrə, Əkbər Fərəcov, Fikrət Cəfərov və Arif Vəliyev cüdo üzrə keçirilən rayonlararası yarışların qalibi və mükafatçısı olublar.

Əsgər Əli Xancanov isə kinqboksinq üzrə respublika birincliyinə layiq görülüb. "Əsgər yoldaşlarım arasında peşəkar idmançılar çoxdur. Onlar həm təlim-məşq toplanışında, həm də hazırlıq dərslərində fəallıq göstərirlər", - deyə Ə.Xancanov bildirdi.

Qeyd etmək yerinə düşər ki, son vaxtlar ölkəmizdə idmana göstərilən diqqət və qayğı öz bəhrəsini verməkdədir. Bu gün qətiyyətlə deyə bilərik ki, gənc əsgərlərin idman hazırlığı yüksək səviyyədədir. Fiziki hazırlığı və döyüş ruhu yüksək olan zabit və əsgərlərin qələbə əzmi də həmişə güclü olur.

Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"

Kriptoqram

1. .... Kazımova (müğənni) - 20 6 26 8 7
2. Hər hansısa bir sahədə ən yüksək nailiyyət - 9 2 10 16 9 19
3. Meyvə - 25 20 24 21 20 18 23
4. Heybə - 17 28 9 27 28 7
5. Əkə, qardaş - 15 14 13 5 10
6. Hərbi bölük - 21 20 22 23 4
7. Məhəbbət, eşq- 1 2 3 26 11
8. "Dağlar arxasında ... dost" - 8 12

1	2	3	4	5	6	5	7		8	9	5	10		1
8	7	11		12	11	12	5	6	5		13	5	7	14
5	9		15	4	9	8		12	16	17		16	18	1
20		19	20		5	21	9	11		16	18	4	20	14

Kiptoqramı həll etdikdən sonra rəqəmlərə uyğun gələn hərfləri göstərilən cədvəldə yerləşdirib, türk şairi, yazıçı, rəssam, dramaturq, Beynəlxalq Sülh Mükafatı laureatı Nazim Hikmətin kəlamını oxuya bilərsiniz.

İdman

Azərbaycan atleti dünya birinciliyində iki rekord yeniləyib, üç medal qazanıb

Albaniyanın Dürres şəhərində yeniyetmələr arasında ağır atletika üzrə dünya birinciliyi keçirilir. 60-dan çox ölkədən 322 (166 kişi + 156 qadın) atletin qatıldığı yarışda Azərbaycan atletləri də qüvvələrini sınayırlar.

Martın 28-də Ravin Alməmmədov körpücük üzərinə çıxıb. O, 73 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Atletimiz birdən qaldırma hərəkətində 136 kiloqramı ram edib və bu hərəkətdən dünya birinciliyinin gümüş medalına sahib çıxıb. Təmsilçimiz təkanla qaldırma hərəkətində isə 167 kiloqramı başı üzərinə qaldırıb. O, bu hərəkətdə də gümüş medal qazanıb.

R.Alməmmədov bu çəkidə təkanla qaldırma hərəkətində türk Karaca Yaşara aid 163 kiloqramlıq Avropa rekordunu yeniləyib. Bununla yanaşı, 167 kiloqramı ram etməklə atletimiz bu hərəkətin toplamında rumıniyalı Yonut Donoseyə aid 300 kiloqramlıq rekordu da geridə qoyub.

Toplam 303 kiloqram (136+167) nəticə göstərən təmsilçimiz yekun sıralamada da dünya birinciliyinin gümüş medalçısı adını qazanıb.

Azərbaycan paralimpiyaçısı Xorvatiyada gümüş medal qazanıb

Azərbaycanın qadın paralimpiyaçısı Sona Ağayeva Xorvatiyada gümüş medal qazanıb.

O, "Zagreb 2023 World Boccia Challenger" turnirində fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Qeyd edək ki, yarış "Paris-2024" Yay Paralimpiya Oyunlarında iştirak üçün reytinq xalları qazandırır.

Azərbaycan çempionatında daha yeddi çəki dərəcəsi üzrə qaliblər bəlli olub



20 yaşadək güləşçilər arasında Azərbaycan çempionatı davam edir.

Yarışın ikinci günündə sərbəst güləş üzrə 86, 92, 97 və 125, yunan-Roma güləşi üzrə isə 55, 60 və 63 kiloqram çəki dərəcələrində görüşlər keçirilib.

Ümumilikdə yeddi çəki üzrə 88 güləşçi gücünü sınayıb.

Sərbəst güləşçilərin yarışında Timur Gülmaqomedov (86 kq), Rəvan Musayev (92 kq), Zəfər Əliyev (97 kq) Yusif Dursunov (125 kq), yunan-Roma güləşçilərinin mübarizəsində isə Elmir Əliyev (55 kq), Məhəmməd Şükürzadə (60 kq), Fəraim Mustafayev (63 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, yarışın ilk günündə sərbəst güləş üzrə 57, 61, 65, 70, 74 və 79 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib.

AZƏRTAC-ın materialları əsasında

Gizir Yolcuyev Valeh Yadigar oğluna məxsus SQ № 0013770 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Mansurov İsrafil Məhəmməd oğluna məxsus AD № 0031747 nömrəli və əsgər Cəfərov Elməddin Rasim oğluna məxsus AD № 0061726 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Vahid MƏHƏRRƏMOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 163
Nüsxə 4725